*Milli özünüdərk və istiqlal ədəbiyyatı*

# Məhəmməd Füzulinin tragizmi
## *(Çağdaş klassik poeziya müstəvisində)*

**Yaşar Qasımbəyli**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: yashargasimov@mail.ru

**Annotasiya.** Məqalədə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin çağdaş milli poetik proseslə mənəvi-estetik əlaqələrindən bəhs edilir. Aradan beş əsrə yaxın böyük bir zaman keçməsinə baxmayaraq, Füzuli dünyası ilə milli-mənəvi bağlantılarımız qətiyyən zəifləmədən, gündən-günə güclənməkdədir. M.Füzuli lirikası orta əsrlərdə olduğu kimi, bu gün də milli söz sənətimizin əsas bədii-fəlsəfi hədəfləri sırasındadır. Hətta sabiq sovet dövrünün siyasi-ideoloji yasaq və məhdudiyyətləri də bu bağlantıları zəiflədə və zədələyə bilməmişdir. Təsadüfi deyildir ki, ötən əsrin əvvəllərində olduğu kimi, ortalarında və sonlarında da M.Füzuli poeziyası ən qabaqcıl və modern poetik nəsillərin zövgünü oxşamış, həmişə onların poetik gözəllik və ideal simvoluna çevrilmişdir. Ötən əsrin 50-60-cı illərində ədəbiyyatımızda, xüsusən, milli poeziyada dərinləşən yenilənmə prosesində M.Füzuli poetik gəncliyin əsas kumiri hesab olunurdu. B.Vahabzadə, B.Azəroğlu, S.Tahir, Ə.Kərim, M.Araz, X.R.Ulutürk, N.Həsənzadə, H.Kürdoğlu, M.Yaqub və başqa qüdrətli sənətkarlarımız öz poetik dünyalarını ustad Füzulinin bədii-estetik meyar və dəyərləri əsasında formalaşdırmağa çalışırdılar. Məqalədə ətraflı və müqayisəli-tipoloji müstəvidə təhlil olunan M.Arazın “Səba yeli” və Ə.Kərimin “Füzuli” şeirləri poetik epoxanın aparıcı meyilləri və mənvi-estetik axtarışları haqqında dolğun və bitkin ədəbi-elmi təsəvvür yaratmağa xidmət edir.
**Açar sözlər:** Məhəmməd Füzulinin lirikası, lirizm və tragizm, Məmməd Araz, “Səba yeli”, Əli Kərim, “Füzuli”, müasir milli klassika, yeni Azərbaycan poeziyası

**Məqalə tarixçəsi:** göndərilib – 07.01.2022; qəbul edilib – 17.01.2022

# Tragedy of Mahammad Fuzuli
## *(In the context of modern classic poetry)*

**Yashar Gasimbeyli**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: yashargasimov@mail.ru

**Abstract.** The article touches upon the moral and aesthetic connection of the great Azerbaijani poet Mahammed Fuzuli with the modern national poetic process. Despite the fact that almost five centuries have passed, our national and spiritual ties with the world of Fuzuli have not been weakened, even is becoming stronger day by day. M.Fuzuli's lyrics, both in the Middle Ages and now, is among a number of artistic and philosophical purposes for the national art of word. Even the past Soviet period's political and ideological restrictions and limitations could not weaken or break this connection. It is no coincidence that, as in the first half, in the middle and end of the last century, the poetry of M.Fuzuli captivated the hearts of the modern generations of poets, has always been a symbol of poetic beauty and aspirations. M.Fuzuli was the great idol of our poetic

youth in the 50s-60s of the last century, when our literature, especially national poetry, was experiencing substantial renewal. On the foundation of Fuzuli's creative and aesthetic ideals and criteria, the poetry world of such great masters of the word as B.Vahabzade, B.Azeroglu, S.Tahir, A.Kerim, M.Araz, H.R.Uluturk, N.Hasanzade, G.Kurdoglu, M.Yagub, and others were developed. The article, based on a deep comparative typological analysis of the poems "Morning Wind" by M.Araz and "Fizuli" by A.Kerim, contributes to the creation of a complete literary and scientific image on the leading aspirations and moral and aesthetic researches of the poetic era.
**Keywords:** lyrics by Mahammed Fuzuli, lyricism and tragedy, Mammad Araz, "Morning wind", Ali Kerim, "Fuzuli", modern national classics, new Azerbaijani poetry

**Article history:** received – 07.01.2022; accepted − 17.01.2022

## Giriş / *Introduction*

60-cı illərdən etibarən intensiv yaradıcılığa başlayan yeni pleyadanın əsas estetik meyarları və ümumi bədii hədəfləri arasında bənzərlik olduğu kimi, onların ədəbi genezisində də uyğun cəhətlər nəzərə çarpırdı. Poetik gəncliyin mənəvi-bədii qidalanma mənbələri, təbii ki, ilk öncə öz doğma ədəbi qaynaqları idi. Ukrayna altmışıncıları T.Şevçenkonu, rus poetik gəncliyi A.S.Puşkini, türkmənlər Məhdimqulunu, özbəklər Ə.Nəvaini, qazaxlar A.Kunanbayevi, qaraqalpaqlar Berdaxı yeni bədii yüksəlişin başlanğıc dayaq nöqtəsi hesab edirdilər. Altmışıncıların yaradıcılığında, xüsusən, ilk lirikasındakı ithaflar, milli klassiklərə həsr olunmuş şeirlər bunu tam əminliklə söyləməyə əsas verir. Onların irsi və əsərləri gənc ədəbi qüvvələr tərəfindən qeyri-adi bir ilhamla, şeir-sənət məbədi kimi vəsf olunurdu. Milli söz dahiləri vətənpərvər şagirdlər üçün sənət və poeziyanın, Vətənin timsalı idi. Azərbaycan altmışıncıları üçünsə belə milli qürur və namus dahisi Şərqdə ulu peyğəmbərimizin adını daşıyan və adaşı olan şairlərin ən ulusu Məhəmməd Füzuli idi.

## Əsas hissə / *Main Part*

Dahi Füzuli mənəviyyatının və dünyasının çağdaş milli poetik prosesə qüvvətli təsiri barəsində görkəmli Azərbaycan ədəbiyyatşünas alimləri akademik Məmməd Cəfər Cəfərov [2], akademik Tofiq Hacıyev [5] filosof tənqidçi Asif Əfəndiyev [3], akademik İsa Həbibbəyli [6] və bu sətirlərin müəllifi [8] müxtəlif dövrlərdə çap etdirdiyi tədqiqatlarında fikir bildirmişlər. Bu cəhətdən akademik Məmməd Cəfər Cəfərovun Məhəmməd Füzuli dünyasını və kədərini səciyyələndirən aşağıdakı mülahizələri diqqəti cəlb edir: "Füzulinin kədərini ancaq öz xalqını düşünən, həmişə elin dərdinə qalan həqiqi, kamil insanlar və namuslu, qeyrətli vətəndaşlar anlamağa qabildirlər.

Füzuli elin dərdini çəkirdi. Füzulinin qəmləri elin qəmləri, elin şikayətləri idi. Füzulinin əsərlərinin başında böyük bir qəm karvanı dolanır ki, o karvan el qəminin, el dərdinin karvanı idi" [2, s.24]. Məhəmməd Füzuli poeziyasının əsas estetik keyfiyyətləri hesab olunan lirik qəhrəmanın mənəvi tənhalığı və müqayisə olunmayan tragik vəziyyəti gənc qələm sahiblərinin diqqətini daha çox özünə cəlb edirdi:

*Saqiya, cam tut ol aşiqə kim, qayğuludur,*
*Qayğu çəkmək nə üçün, cam ilə aləm doludur...*
*Bunca kim, kuhsifət başimə daşlar urulur,*
*Dideyi bəxtim oyanmaz, nə əcəb uyğuludur!.. [4, s.126]*

Xüsusən, 50-ci illərin absurd ictimai optimizmi və saxta əhval-ruhiyyə yüksəkliyini təbliğ, tərənnüm edən ədəbi mühitində Füzuli kədərinin və qəminin gənc şairlər tərəfindən diqqət mərkəzinə çıxarılması dolayısı ilə cəmiyyətin mənəvi-siyasi təsir və təzyiqlərinə müqavimətin özünəməxsus və uğurlu bir forması idi. Füzuli təkliyini və tənhalığını səmim-qəlbdən təsdiq və tərən-

nüm edən Məmməd Araz da, Füzuli tragizmini cəmiyyətin və ədəbi elitanın gözləri önündə nümayiş etdirən Əli Kərim də ilk öncə məhz bu poetik məqsədləri qarşılarına qoymuşdular.

"Səba yeli" (1958) poetik nəslin milli şeir peyğəmbərindən bəhs edən ən gözəl əsərlərindən biridir. Məmməd Araz öz şeirinə ustad Füzulidən təsirli bir epiqraf seçmişdi. Məhəmməd Füzuli taleyinin və tənhalığının bədii-fəlsəfi düsturu təsirini bağışlayan aşağıdakı beyt, eyni zamanda, Məmməd Arazın Füzuli konseptinin də mükəmməl poetik ifadəsi idi:

*Nə yanar kimsə mənə atəşi-dildən özgə,*
*Nə açar kimsə qapım badi-səbadan qeyri* [4, s.299].

Təkliyin və tənhalığın insan şivəsində mümkün ola bilən ən emosional ifadəsi kimi duyulan bu beyt şairin sevimli obrazının əslinə ən yaxın surəti idi. Şagird ustadının surətini məhz bu beytə güvənərək inşa etməyə girişir: "Sözün sehrinə bax, qüdrətinə bax! Bir heykələ döndüm öz yerimdə mən. Beləcə bir misra deyəydim ancaq, Yüz il yazacağım əsərimdə mən. Keçirmiş sənətin imtahanından Dörd yüz bahar onu, dörd yüz qış onu. Bir ana torpağın ürək qanından Qan alan bir ürək yaratmış onu" [1, s.65]. Gənc şair dahiliyin və Füzuli təkliyinin, təkrarsızlığının sirrini açmaq istəyir. Dahilik – əbədi əzabkeşlik deməkdirmi? Niyə yüz illər keçsə də, onun köksünü nişan alan söz sehrkarını hətta fələk də unutmur? Fələyin şöhrətinə kölgə saldığı üçün şairin başına göylərdən daşlar yağdırır:

*Görürəm üstünə daş yağır belə,*
*Fəqət göz qırpmadan oturmusan sən [1, s.66].*

"Bunca kim, kuhsifət başımə daşlar urulur" deyən lirik qəhrəmanın öz etirafından və şikayətindən çıxış edərək gənc şair ustadının faciəsini və müsibətini heyrətamiz bir məharətlə əsaslandırır. Başqa sözlə, sanki həmdərd şagird sanki "göylərin başına daşlar yağdırmasının baş səbəbkarı elə sən özünsən, ey ustad!" – deyir:

*Çünki söz oxunla, söz atəşinlə*
*Fələyin damını uçurmusan sən [1, s.66].*

Müəllif Füzuli obrazının ən ümdə xüsusiyyəti kimi tənhalığı seçir. Füzuli mənəviyyatının və taleyinin baş əlaməti kimi bu ictimai məqam çox düşündürücüdür. Füzuli niyə təkdir? Lirik "mən" bu sualında təkid edir:

*De niyə tənhasan, de niyə təksən?*
*Soltanlar taxtından şikayətin var [1, s.66].*

Bu beytdə M.Araz bir ictimai xarakter kimi söz dahisinin tənhalığını izah etmək istəyir; yəni ədalətsiz cəmiyyətdə kamil söz adamının yalqızlığı labüddür. Bəs söz dünyasının sahibi olan misilsiz qüdrət timsalı necə tək ola bilər? Onun dünyasından güc və nur alan dünyalardan bir könül həmdəmi niyə tapılmır?

*Sən ki, mehvərisən söz dünyasının,*
*Qəlbinə bir həmdəm dünyamı yoxdur? [1, s.67]*

Gənc qələm sahibi sonra isə Füzulinin bir insan olaraq tənhalığının səbəbini anlamaq və anlatmaq istəyir. Şeirdə Füzuli tragizminin yeni qatlarını açmaq və kəşf etmək meyli qabarıq surətdə nəzərə çarpır. Yəni qapını küləyin açması yalqızlığın bir əlamətidirsə, ah-nalədən evin qapılarının açılması daha şiddətli və obrazın xarakterinə son dərəcə uyğun bir poetik detaldır. Müəllif Füzulinin öz obrazlarından istifadə edərək şairin mənəviyyatını dolğun və həqiqətə uyğun şəkildə əks etdirməyə müvəffəq olur: "Odla üzə çıxıb sinənin varı, Bir dağsan, vulkanlar yanır canında. Gözlərindən çıxan qığılcımları Göylər ulduz edib kəhkəşanında" [1, s.67]. M.Arazın mübaliğə və mü-

qayisələri Füzuli kədərini anlamağa, qismətini təsəvvür etməyə kömək edir. Bizi Füzuli sirlərinə yaxınlaşdırır:

*De niyə tənhasan, de niyə təksən?*
*Tufanlardır ahın, çaylardır qanın.*
*Bilmirdin, ömürlük ömür edəcəksən*
*Qəlbində anamız Azərbaycanın [1, s.67].*

Şeirin son bəndlərində Füzuli əbədiyyətindən və dünyanın füzulliləşməsindən bəhs edir müəllif... Bütün təbiət – küləkləri, yelləri, buludları, göyləri, ulduzları, günəşi ilə... Füzuliyə dönür, füzulliləşir. Yer üzü başdan-başa, ana təbiət və Vətən Füzulinin rəmzinə çevrilir. Onun ölüm gününü günəş öz şüaları ilə göylərə yazır. Əbədi olaraq o bənzərsiz dahinin sözü ürəklərə, özü torpağa, səsi isə küləklərə verilir...

*Günəş də üzündən qəm yağa-yağa*
*Yazdımı göylərə o ölən günü?*
*Sözü ürəklərə, özü torpağa*
*Səsi küləklərə verilən günü [1, s.67].*

"Səba yeli" Füzuli haqqında altmışıncıların yazdığı ən gözəl şeirlərdən biri hesab olunmalıdır.

Əli Kərimin "Füzuli" (1958) şeiri də özünün dərin və fəlsəfi mənaları ilə bu mövzudakı parlaq bədii nümunələrdən biridir. Füzuli və altmışıncılar problemini dərk etmək üçün bu şeirin əhəmiyyəti misilsizdir.

Əgər M.Arazın "Səba yeli" şeirində dahi sənətkarın taleyinin təkrarsızlığı və fövqəladə tənhalığı poetik təhlil mərkəzinə çıxarılmışsa, Ə.Kərimin "Füzuli" şeirində dahi sənətkar mənəvi dünyasının başqa bir cəhəti və özəlliyi – onun dərd-qəminin əzəməti, möhtəşəmliyi, dağlar qədər ağırlığı tərənnüm obyektinə çevrilib. Akademik M.C.Cəfərov Füzuli tragizminin mahiyyətini təhlil edərək yazır:"Füzuli sevirdi. Füzulini başa düşmək üçün, hər şeydən əvvəl, sevən bir qəlbə malik olmaq lazımdır. Lakin elə bir qəlb ki, sadəcə sevib yüngülləşmək deyil, sevib kədərlənə bilmək üçün də döyünsün... Sevib kədərlənmək, bütün xalqın, elin, bəşəriyyətin dərdinə şərik olmaq isə çətindir... Füzuli belə sevirdi! Füzuli öz böyük qəlbində bəşərin bütün eşqini, ələmini gəzdirirdi" [2, s.25]. Zatən ustad Füzuli özü-öz lirik "mən"ini hamıdan yaxşı və dəqiq səciyyələndirmişdi. Böyük sənətkar öz əhvalını və mühitini son dərəcə sərt və zərgər dəqiqliyi ilə gözlərimiz önündə canlandırmışdı:

*Dust bipərva, fələk birəhim, dövran bisükun,*
*Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.. [4, s.243]*

Füzuli öz şəxsiyyətini və dünyasını dərd-qəmin məskəni, öz qəlbini isə sonsuz kədərin ən parlaq rəmzi kimi xarakterizə edir:

*Mən kiməm? – Bir bikəsü biçarəvü bixaniman,*
*Taleyim aşüftə, iqbalım nigun, bəxtim yaman... [4, s.331]*

Ustad şair özünün sadəcə olaraq qəmpərvər, qəmnəvis, qəmsevən adlandırmır. O, öz qəlbini dünyadakı saysız-hesabsız qəmlərin guşəsi, ən məhrəm məskəni, dünyadakı bütün qəm növlərinin daşıyıcısı və qəmxanası hesab edir:

*Müttəsil qəmxaneyi-sinəmdə yüz qəm mehman,*
*Qanda bir qəm itsə, bəndən istəsinlər, mən zəman... [4, s.331]*

Ə.Kərimin “Füzuli” şeiri dahi sənətkarın məhz bu cür və bu tipli fəlsəfi-ruhani tərifləri və etirafları üzərində qurulub. Ə.Kərim sanki Füzuli taleyini və dünyasını onun öz üslubunda təhlil və tərənnüm edir. Elə bil ki, ustad Füzuli XX yüzilin 50-ci illərində öz haqqında Əli Kərim dilində və ruhunda söhbət açır. Bu şeiri oxuyarkən, qeyri-ixtiyari olaraq, məşhur kəlam yadımıza düşür; əgər Füzuli olmasaydı belə, onu uydurmaq lazım gələrdi. Əli Kərim ustada məhz bu cür baxır. Söz dünyasının Tanrısı kimi yanaşır:

*Dünya səni qocaltdı – yaşıdın olsun deyə,*
*Gömüldü dərdin yerə, ucaldı ahın göyə [7, s.291].*

Niyə və nə üçün bu fəlakət baş verir? Buna səbəb olan dərd-sərin kökündə nə durur? Bu dərdin nə üçün şəriki yoxdur, bircə həmdərd belə tapılmır? Dağları əridəcək dərdi necə təsəvvür edə bilərik?

*Dərdə şərik – dərd özü, sükut – suala cavab,*
*Qranit dağlar belə, gətirməzdi buna tab [7, s.291].*

Gəlin poetik fikrin dinamikasını müşahidə edək. Dünyanın dərdi şairi erkən o qədər qocaldıb ki, hətta ona öz yaşıdı kimi baxa bilər. Bu dərd o qədər ağır və dözülməzdir ki, onun təzyiqindən şairin vücudu yerə gömülür, ahları isə göylərə yüksəlir. Dərdin böyüklüyü, əzəmətliliyi bir yana, bu dərdə şərik də yoxdur, suala – sükutla cavab verirlər. Bəs bütün bunlar nədəndir? Belə aqibətin əsl səbəbi nədir? Müəllif bizi düşündürən suala qısa və aydın cavab verir:

*Füzuli, o nə dövran!.. – Görsələr yanır insan*
*Yanana od verdilər [7, s.291].*

Faciənin səbəbkarı – dövrandır. Füzuli fəlakətinin günahkarı dövranın əməlləridir. Elə bir dövran ki, dörd yüz il keçsə də onun iztirabları Füzulinin övladlarını – nəvə və nəticələrini də göynədir. Müəllifin heyrətlə yoğrulmuş harayına diqqət edin: “Füzuli, o nə dövran!..”. Əli Kərim burada düz hədəfə vurur. Şair və dövran konfliktini qabartmaqla dahi ustadın tragik surətini canlandırmağa nail olur. Bəli, Füzuli faciəsi zaman kontekstində bütün əzəməti ilə görünür. Dövranın əlamətlərini də Əli Kərim zərgər dəqiqliyi ilə təyin etmişdir: 1. Yanana – od verirlər. 2. Donana – buz verirlər. 3. Batana – bütün dəryaları birdən bəxş eləyirlər. Məhz belə sərt və adi həyati detallarla şair dövranın heyrətamiz dərəcədə təbii portretini cızır. Füzuli və zaman münasibətini son dərəcə səlis və sərrast canlandırır:

*Füzuli, o nə kədər!*
*Görsələr donur insan,*
*Donana buz verdilər... [7, s.291]*

Bu – kədərin Əli Kərim qələmi ilə yazılmış Füzuli tərifidir. Və sonun, yəni qəzavü-qədərin Füzuli möhürü də unudulmazdır. Başqa sözlə, Füzulinin qisməti – bütün dahilərin qismətidir. Belə də demək olar, bütün ululların taleyi Füzuliyanədir:

*Füzuli, o nə qədər?! –*
*Görsələr batır insan,*
*Batana dəryaları*
*birdən bəxş elədilər [7, s.291].*

Biz Füzuli kədərinin bütün əzəmətini və miqyasını təsəvvür edə bilməsək də, onun fövqəladəliyini anlayırıq. Şair də dahi kədərini əvvəldən axıra kimi təhlil etməyin mümkünsüzlüyünü

dərk edərək, yalnız bu dərdin əzəmətinə işarə edir: “Gəldi kəsdi qapının ağzını şöhrətlə ad, Ey böyük ustad, heyhat Ürəyində o ada, şöhrətə yer vardımı? Min bir kədər əlindən orda yer qalardımı?” Füzuli tragizmini əks etdirmək üçün gənc şair qeyri-adi bənzətmələrə müraciət etməyi lazım bilmir. Elə dahi sənətkarın öz taleyi və tərcümeyi-halından bəlli detallar, təfsilatlar vasitəsi ilə obrazın mahiyyətini əyaniləşdirməyə çalışır. Məsələn, bu bircə misra böyük şairin ruhi vəziyyətini aydın göstərmirmi?

*Doğma sözlərinə də*
*qəlbində yer vardımı? [7, s.292]*

Baxın, Füzulinin ümumşərq şöhrətini müəllif necə də gözəl və Füzuliyanə, yəni ona hədsiz uyğun bir tərzdə bədiiləşdirib: “Dünya səni qocaltdı – cavan görünsün deyə, Yanğınlar tüstüsü tək, ahın ucaldı göyə, Sən od tutub alışdın”. Od Füzuliyə ən məhrəm və doğma təbiət ünsürüdür. Füzulini bütün dünyada məşhur edən onun odla həmcinsliyidir. Eyni zamanda bu odun və alovun nəticəsində o bütün şərqdə görünmüş və əbədi olaraq gözlərə, könüllərə həkk olunub: “Bu odu qoca Şərqin hər yerində gördülər, - Bütün bu gen dünyanın gözləri göydə qaldı. Göy də şəfəqlər saçan ahına baxdı qaldı”. Müəllif bu odun mənbəyi barəsində sirli bir tərzdə söhbət açır. Onun ilahi mənşəyinə işarə etməklə kifayətlənir: “Dedilər ki, fələklər yaratmışdır bu odu Fəqət bu oda yanan fələklər özü oldu”. İlahi məskənin – göylərin şair ürəyinə saldığı od yerləri yox, göyləri yandırır. Göylərdən gələn şair yerlərə sığmır. Yerdə möcüzələr xəlq edib, yenə öz əbədi Vətəninə qayıdır: “Baxıram ucalardan gəlir Füzuli səsi. Görünür ucalarda onun nurlu izləri. O ulduzlar Füzuli yanğısının gözləri, O günəş də Füzuli odunun nişanəsi”.

Şairin bütün bunları yerli-yataqlı və ətraflı təsvir etməkdən məqsədi nədir? Müəllif yalnız Füzuli kədərinin böyüklüyünü, Füzuli dərdinin əzəmətinimi göstərmək istəyir? Bu məsələnin bir tərəfidir. Əsas məqsəd isə Füzuli zamanı ilə çağdaş zamanın eynicinsli və həmahəng olduğunu vurğulamaqdır. Yeni lirik “mən” öz mənəviyyatının Füzulidən başlandığını və ustad sənətkarla dərddaş olduğunu nəzərə çatdırmaq istəyir. Yəni Füzuli nədirsə və necədirsə “mən” də eləyəm. Əli Kərim bununla özünün də Füzuli qədər “dərdi çox, həmdərdi yox” olduğunu, düşmənlərinin “qəvi”, talenin isə həmən “zəbun”luğunu təkrar-təkrar vurğulayır. Bax bu mənəvi qohumluğu qabarıq tərzdə nəzərə çatdırmasaydı şeirin dəyəri bu qədər yüksək olmazdı. Və Əli Kərim də özü ilə Füzuli arasındakı bu qohumluğu, ruhlarının əkizliyini dərindən duymasaydı, şübhəsiz ki, bu şeiri də yazmazdı.

Ədəbiyyatşünas alim Cavanşir Yusifli bu şeirin təhlili üzərində geniş dayanaraq mühüm mülahizələr irəli sürür. Səməd Vurğunun və Əli Kərimin yaratdığı Füzuli obrazlarını müqayisə edərək müəllif yazır: “Əli Kərimin “Füzuli” şeirində bambaşqa bir mənzərənin və dünyaduyumun şahidi oluruq. Əli Kərimin şeirində geniş planda verilən fərqli yön öz inkişaf başlanğıcını Səməd Vurğunun bir misrasından götürür: “...asiman dolandı şikayətindən”. Ancaq bu “başlanğıc nöqtə” o məqama qədər inkişaf etdirilir ki, nəticədə əşya və predmetlər arasındakı münasibətlər dəyişir, Füzuli haqqında monoloq şaquli bucaq altında kəsilir, müəyyən məqamlarda yaranıb formalaşan “dillər” cərgəsi gah ayrılıb, gah da birləşib “danışır”, “dövran və Füzuli” paralelizmi bərabərlik işarəsinə çevrilir, Səməd Vurğundakı “mən bütün dünya haqqında danışıram”, “mən bütün kainatı ifadə edirəm” motivi Əli Kərimdə “dünya, dövran... məndən danışır” şəklinə düşür” [9, s.58-59].

## Nəticə / *Conclusion*

Keçən əsrin ortalarında milli poetik fikrin Məhəmməd Füzuli irsinə fəal münasibəti ədəbi epoxanın ən möhtəşəm və yaddaqalan hadisələrindən sayılmalıdır. Füzuliyə qayıdış əslində milli poetik yaddaşın oyanmasında və özünəqayıdışında ilk və ən zəruri addımlardan biri idi. Yuxarıda tipoloji-müqayisəli müstəvidə nəzərdən keçirdiyimiz “Səba yeli” və “Füzuli” şeirləri yalnız bir estetik mərhələnin uğuru deyil, əslində yeni Azərbaycan poeziyasının ərsəyə gəlməsində və ədəbi mühitdə daha da möhkəmlənməsində irəliyə atılmış qətiyyətli addımlar idi.

**Ədəbiyyat / *References***


1. Araz M. Seçilmiş əsərləri. 4 cilddə, I cild. Bakı: Ozan, 2003.
2. Cəfərov M.C. Füzuli düşünür. Bakı: Elm və təhsil, 2019.
3. Əfəndiyev A. Ön söz. Bax: Kərim Ə. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1974.
4. Füzuli M. Əsərləri. 6 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2005.
5. Hacıyev T. Ön söz. Əli Kərim poeziyası. Bax: Ə.Kərim seçilmiş əsərləri. Bakı: Lider, 2004.
6. Həbibbəyli İ. Xalq şairi Məmməd Araz. Bakı: Azərbaycan, 1999.
7. Kərim Ə. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1974.
8. Qasımbəyli Y. Milli oyanış və özünəqayıdış lirikası. Bakı: Elm və təhsil, 2012.
9. Yusifli C. Azərbaycan poeziyasında Əli Kərim mərhələsi. Bakı: Adiloğlu, 2005.


# Трагизм Мохммеда Физули
## *(в аспекте современной классической поэзии)*


**Яшар Гасымбейли**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: yashargasimov@mail.ru



**Резюме.** Статья затрагивает нравственно-эстетическую связь великого азербайджанского поэта Мохаммеда Физули с современным национально-поэтическим процессом. Несмотря на прошедшие почти пяти столетий, связь мира Физули с нашей национальной нравственностью не только не ослабла, но даже крепла с каждым днём. Лирика М.Физули, как и в его средние века, и в наши дни для национального словесного искусства является в ряде художественно-философских целей. Даже политико-идеологические препоны и запреты прошедшего советского периода не смогли ослабить и нарушить эту связь. Не случайно, что, как и в первой половине, в середине и конце прошлого века поэзия М.Физули пленяла сердца передовых современных поколений поэтов, всегда была символом поэтической красоты и идеалов. В 50-60-е годы прошлого века, в процессе широкого обновления, в нашей литературе и в особенности в национальной поэзии, М.Физули был главным кумиром нашей поэтической молодёжи. Поэтический мир таких даровитых мастеров слова, как Б.Вахабзаде, Б.Азероглу, С.Тахир, А.Керим, М.Араз, Х.Р.Улутурк, Н.Гасанзаде, Г.Курдоглу, М.Ягуб и др. формировался на основе художественно-эстетических ценностей и критериев Физули. Статья на основе глубокого сравнительно-типологического анализа стихов М.Араза «Утренний ветер» и А.Керима «Физули» способствует созданию полного законченного литературно-научного представления о ведущих стремлениях и нравственно-эстетических поисках поэтической эпохи.



**Ключевые слова:** лирика Мохаммеда Физули, лиризм и трагизм, Мамед Араз, «Утренний ветер», Али Керим, «Физули», современная национальная классика, новая азербайджанская поэзия